

*Valeh HEYDƏR*

***Valeh Yavər oğlu Heydərov, şair-publisist. M.A.Əliyev adına ADİİ-nin məzunudur. Yeddi kitabın müəllifi, on almanax kitabın isə həmmüəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.***

# ÖMRÜN BAHAR ÇAĞI TƏRAVƏT SAÇIR

**(Sonet çələngi – İngilis variantı)**

Ömrün bahar çağı təravət saçır,
Könül bağçasından çiçək dərilir.
Yüksəlir göylərə, ruh qanad açır,
İki bəxt ulduzu qoşa görünür.

Səmada buludlar nəşəli axır,
Hərdən də nur səpir yerin üzünə.
Ay isə bu axşam gülərüz çıxır,
Heyrandır gənclərin gözəlliyinə.

Hüseyn vəfa andı içir Günelə,
Təbiət köklənib eşq havasına.
O, şeyda bülbül tək gələrək dilə,
Şirin nəğməsini oxuyur ona.

Sevənlər axtarmaz sərvət, nə də var,
Aşiqə xəzinə — öz tapdığı yar.

* * *

Aşiqə xəzinə — öz tapdığı yar,
Hər şey ölçülmür ki, çox sərvət ilə.
Pul da əldən alır xeyli ixtiyar,
Bəzən arzuları döndərir külə.

Halala bağlıdır təmiz duyğular,
Bir ləkə düşərsə, itər dəyəri.
Həyatın pozulmaz qanunları var,
O, xeyri xoşlayır, pisləyir şəri.

Vurğun ürəkləri hey öyür aləm,
Onlara gül-çiçək ətri bəxş edir.
Silinir könüldən qüssə, kədər, qəm,
Ömür billur su tək axaraq gedir.

Sevənlər çətində qalmazlar naçar,
Bağlı qapını da məhəbbət açar.

* * *

Bağlı qapını da məhəbbət açar,
Yaradan hər şeyə vermiş bir düzən.
Aşiqin fərəhdən üzü nur saçar,
Xoşbəxtdir öz yarın oxşayan, süzən.

Qızlar analardan alar dərsini,
Ömrünə, gününə gözəllik qatar.
Əgər kimlər etsə bunun tərsini,
Taleyi mürgülər, bəxti hey yatar.

Müdrik babalarsız yaşamaq çətin,
Onlara ən yüksək dəyəri verək.

Qoy könlü sevinsin ata-ananın,
Körpə beşiyinə laylalar çalsın.
Yaxşı duy hissini sənə yananın,
Evindən daima nəğmə ucalsın.

Kökdən ayrı düşsən, əzablar başlar,
Acizlər həmişə təkliyi xoşlar.

* * *

Acizlər həmişə təkliyi xoşlar,
İstəməz ruzisi zəhmətlə ola.
Vəhdətin çox dərin mənaları var,
O, daim güc verər ruha, həm qola.

Hünərlə ucaldı böyük nəsillər,
Yaşayıb mübarək adlar aldılar.
Meydanda tanındı neçə igid ər,
Rəqiblər canına qorxu saldılar.

Doğmalar yanında yer alın siz də,
Əziz insanlardan ayrı düşməyin.
Fərəh çoxaldıqca könüldə, üzdə,
Qurulan xəyal da tez olacaq çin.

Həyatda uğurlar qazanın deyə,
Mərd tək sinə gərin hər çətinliyə.

* * *

Mərd tək sinə gərin hər çətinliyə,
Yaransın ürəkdə yeni arzular.
İnsana təbiəti gərək dinləyə,
Aləmin çox sayda gözəlliyi var.

Günəşlə oyanın, açın səhəri,
Ruha qida versin bülbül nəğməsi.
Qovun könülləri sıxan qəhəri,
Xeyirə can atın, rədd edin nəsi.

Gənclik bir nemətdir, qədrini bilin,
Yaşasın bir ömür xatirələri,
Ağrılı günləri yaddaşdan silin,
Xoş günü səsləyin, deyin: "Gəl bəri."

Bunu yaxşı bilsin el oğulları,
Onlar atalardan öyüd almalı.

* * *

Nəsihət sevməyən itirər arı,
Dəyərli hər kəlmə yadda qalmalı.
Nadanlıq edənlər çəkərlər ah-zar,
Kamillik bəxş edər insana vüqar.

Kamillik bəxş edər insana vüqar,
Zirvəyə qovuşan xoşbəxt dünyada.
Unutmaz bir an da aşiqini yar,
Sevincli günlərin o verməz bada.

Allah rizasını alan hər işdə,
İbadət yolunda mətləbə çatar.
Fərəh hiss olunar sözdə, gülüşdə,
Ürəkdən qüssəni, kədəri atar.

Nə qədər şəfəqli sökülsə də dan,
Şər də addımbaşı görünür gözə.
Çalışın, xeyirə verilsin meydan,
Gül-çiçək yayılsın çəmənə, düzə.

Bəzən dözmək gərək hər çətinliyə,
Ehtiyac duyurlar hey mətinliyə.

* * *

Ehtiyac duyular hey mətinliyə,
Ömür yollarında əldən bərk tutun.
Sədaqət önündə gücsüzdür hiylə,
Etibar göstərib vüsala çatın.

Gətirin hər yerdə böyük hörmətin,
Onların duası sizə çox gərək.
El sözü kəsərli, sanki bir ülgüc,
Çağlayan dəryadır xalqda olan güc.

* * *

Çağlayan dəryadır xalqda olan güc,
Dar gündə göstərər dəyər, qiymətin.
Düşmənə dərd verər, lap qoyar gülünc,
Göstərər yağıya dərin nifrətin.

Rəbbiniz verəndə övlad qisməti,
Dönüb Yaradana hey şükür edin.
Çalışın, çox olsun həya, isməti,
Unutma — Allahdır sənin şahidin.

Uşağa həyatda düz əxlaq gərək,
Bunu bilməlidir evdə böyüklər.
Gözəl istəklərlə vurmasa ürək,
O, sonra özünü dərd ilə yüklər.

Acı yox, şirindir balalar baldan,
Onları vəsv edir hər sökülən dan.

* * *

Onları vəsv edir hər sökülən dan,
Yaxşı ki, Günəş var — dünyaya işıq.
Təbiət boylanır yaşıl donundan,
Çiçəklər çəmənə verir yaraşıq.

İlahi, nə gözəl mənzərədir bu,
Təbini coşdurur hətta şairin.
Xəyalım bir anlıq göylərə uçdu,
Saf eşqin mənası necə də dərin.

Arzular dilimdə duaya dönür,
Gəzib kainatı dönür ünvana.
Bu aləm necə də qəşəng görünür,
O, sanki hər kəsə mehriban ana.

Çılğın göy üzü də baxır bu gün dinc,
Sayrışan ulduzlar yaşayır sevinc.

* * *

Sayrışan ulduzlar yaşayır sevinc,
Beləcə sevənlər çatır vüsala.
Gəlir aşıqlara məclisdə təb, güc,
Gözləyir məqamı "Vağzalı" çala.

Dünyanı etməyin dərdlə başa dar,
Sevincdən şadlanar, gülər baxışlar.

* * *

Sevincdən şadlanar, gülər baxışlar,
Ata-ana qəlbin fərəh bürüyər.
Onların övladdan təmənası var,
Bunu bilməyənlər işlərin əyər.

Bacı-qardaşın da vardır öz yeri,
Heç kim yolun çaşıb, yanlış getməsin.
Yadlara verməyin məxsusi sirri,
Dönüb arxanızca qeybət etməsin.

Ehtiyac duyana kömək də olun,
Əməldə duyular ruhun saflığı.
Həyat dərslərini mərdlərdən alın,
Dünya ibrət yeri — hər kəs baxdığı.

Çalışın, vətəndə qazanın ad-san,
Siz ayrı düşməyin eldən, obadan.
Siz ayrı düşməyin eldən, obadan,
Qoruyun vətənin hər qarışını.

Bilin, öz yurdunun nemətin dadan,
Qazanar həyatın çox yarışını.

* * *

Əgər bilinməzsə torpağın qədri,
O, bir gün əğyara asan yem olar.
Qazancı xərclərkən keçməyin həddi,
Çox israf edənlər naəlac qalar.

Axtarın insanda gözəllik, dəyər,
Pislər nankorluqda taparlar özün.
Yaxşılar hər yerdə düzü səsləyər,
Çalışın, görməyin yamanlar üzün.

Kövrək duyğulara köklənib hamı,
Mələk simalı qız gəlin köçəcək.
Bəy-gəlin gözləyir, yandırıb şamı,
Sevənlər sədaqət andı içəcək.

Oynayıb məclisdə qardaş-bacılar,
Şirinlik qatacaq gözəl büsata.
Hamı şənlənəcək bu gün o ki var,
Oğlunun toyunda süzəcək ata.

Ömrünüz xoş keçsin, olmasın hədər,
Həyatda çətin gün görməyin, gənclər.

* * *

Həyatda çətin gün görməyin, gənclər,
Bizlər şahid olduq çox gözəl toya.
Libaslar parladı, üstü dolu zər,
Hamı heyran qaldı qamətə, boya.

Hünərlə daşıyın həyat yükünü,
"Afərin!" sədası hər yanı alsın.
Yaşayın həyatda daim xoş günü,
İllər ömrünüzün bəzəyi olsun.

İşləyin şərəflə, yaxşı ad ilə,
Saxlayın həmişə qəlbi də təmiz.
Qeybət fəsadlıdır, almayın dilə,
Yaxşı əməl ilə salın cığır, iz.

Sizdən uzaq olsun kədərli günlər,
Xoş ömür yaşayın, gözəl, təzə-tər.

* * *

Xoş ömür yaşayın, gözəl, təzə-tər,
Sevincli günlərin sayı çox olsun.
Hər ömür — yazılan böyük bir əsər,
Çalışın, yaxşısı yadigar qalsın.

Fərəhdir böyütmək xeyirli övlad,
Olsun sizlərində bir gün qisməti.
İnsana dünyada qalır təmiz ad,
Uca tutmalıdır hər kəs isməti.

Oxuyun, artırın elmə həvəsi,
Könlünüz açılsın qönçə gül kimi.
Ruha qida verər sətri, kəlməsi,
Kitabla açılar həyat tilsimi.

Yaşayın acısız, ömrü mənalı,
Baldan şirin olsun onun hər halı.

* * *

Ömrün bahar çağı təravət saçır,
Aşiqə xəzinə — öz tapdığı yar.
Bağlı qapını da məhəbbət açar,
Kamillik bəxş edər insana vüqar.

Ehtiyac duyular hey mətinliyə,
Acizlər həmişə təkliyi xoşlar.
Mərd tək sinə gərin hər çətinliyə,
Sevincdən şadlanar, gülər baxışlar.

Siz ayrı düşməyin eldən, obadan,
Çağlayan dəryadır xalqda olan güc.
Onları vəsv edir hər sökülən dan,
Sayrışan ulduzlar yaşayır sevinc.

Həyatda çətin gün görməyin, gənclər,
Xoş ömür yaşayın, gözəl, təzə-tər.

***2025***

